# Yerlərdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində ağacəkmə aksiyaları keçirilir

**LƏNKƏRAN**

**"Konstitusiya və Suverenlik İli" ilə bağlı təsdiq olunmuş tədbirlər planı çərçivəsində Ələt-Astara avtomobil yolunun Lənkərandan keçən hissəsində ağacəkmə aksiyası keçirilib.**

Yerli idarə, müəssisə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən aksiyada yeni əkilən ağaclar suvarılıb və dayaqlarla bərkidilib.

Liman, Boladi, Girdəni, Haftoni, Qrumba, Şağlakücə, Kərgəlan, Şürük, Səpnəkəran və Sütəmurdov ərazilərində keçirilən aksiya zamanı 2000 sərv ağacı əkilib.

**YARDIMLI**

**Ağacəkmə aksiyasında RİH başçısı aparatının, idarə, müəssisə və xidmət sahələrinin əməkdaşları, gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.**



Aksiya iştirakçıları tərəfindən ağac əkiləcək ərazi əvvəlcədən təmizlik işləri aparılaraq əkin üçün hazır vəziyyətə gətirilmişdir. Aksiyada 50 Eldar şamı və 50 göyrüş ağacı əkilmişdir.

Aksiyanın keçirilməsində məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltməkdir.

**MASALLI**

**Rayonun Xırmandalı ərazisində Masallı RİH-in təşkilatçılığı ilə keçirilən aksiyada icra hakimiyyəti başçısının Xırmandalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi, kənd bələdiyyəsi, şəhid ailələri, ziyalılar, din xadimləri və sakinlər iştirak etmişlər.**

Aksiya çərçivəsində mərkəzi yolun kənarlarında 50-dən çox meşə ağacı əkilmiş, ağaclara aqrotexniki qulluq göstərilmişdir.

Ağacəkmə aksiyasında çıxış edən Masallı RİH-in məsul əməkdaşı N.Həsənov digər ərazilər kimi Xırmandalı ərazisində də "Konstitusiya və Suverenlik İli" çərçivəsində aksiyanın keçirilməsinin ekoloji tarazlığın qorunmasına mühim təsir edəcəyini bildirərək bu cür kampaniyaların rayon ərazisində ənənə halını aldığını vurğulamışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 16 mart (№58).- S.10.